**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Ahmet Erentok Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin iclasında çıxış etmişdir

**No: 09/33/112**
**06.10.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri və Qara Dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin (UBCCE) birinci vitse-prezidenti Ahmet Erentok Vilnüsdə (Litva) keçirilən Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin (İCİE) iclasında çıxış etmişdir.

Konfransın keçirilməsində məqsəd Avropa İttifaqı və MDB ölkələrinin iqtisadi əməkdaşlıq perspektivlərinin müzakirəsi olmuşdur.

Konfransda "Qlobal iqtisadi və maliyyə böhranı kontekstində Avropa və Asiya ölkələri arasındakı iqtisadi əməkdaşlıq" mövzusunda çıxış edən Ahmet Erentok bildirib ki, Asiya və Avropa bir-biri, eyni zamanda dünya üçün həlledici və getdikcə artan iqtisadi, siyasi və mədəni əhəmiyyətə malikdir. A.Erentok qloballaşmanın müəyyən imkanlar yaratmaqla yanaşı bir sıra problemlər meydana gətirdiyini də qeyd etmişdir.

Ahmet Erentok çıxışında qeyd edib ki, bu gün qarşımızda duran ən mühüm məsələ beynəlxalq maliyyə böhranından xilas olmaqdır. A.Erentok böhranın gətirdiyi əsas problemlərdən olan işsizlik probleminə də toxunmuşdur: "Hesab edirəm ki, indiki vəziyyətdə kiçik və orta biznesin inkişafı işsizlik probleminin həlli üçün çox aktual və unikal üsuldur".

Onun fikrincə, xüsusi ilə Avropanın sənaye, investisiya mənzərəsində pessimist görüntülər öz əksini tapır. "Bu, əsas da özünü bir sıra bahalı ölkələrdə bəzi sənaye sahələrindən sürətlə uzaqlaşmada özünü göstərir".

Ahmet Erentok daha sonra vurğulayıb ki, bu arada Asiya xarici mənbələrin daxili mənbələrlə əvəz olunması balansını artırmağa çalışır: "Qlobal böhranın Asiya iqtisadiyyatına təsiri gözlənildiyindən çox oldu. 2008-ci ilin sentyabr ayından etibarən böhran sürətlə Asiyaya yayıldı və bu regionun iqtisadiyyatına çox güclü təsir göstərdi. Qlobal iqtisadi və maliyyə böhranı daha geniş daxili və çoxtərəfli siyasət koordinasiyası tələb edir ".

O, çıxışının sonunda qeyd edib ki, indi lazımi ölçü götürməyin zəruri olduğu bir vaxtdır: "Hesab edirəm ki, Asiya və Avropa bu problemlərin həlli üçün birləşməli və hər iki tərəfin qalib çıxa biləcəyi vəziyyəti yaratmalıdır".

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**